Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2022, **s. 42-48**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2022, **с. 42-48**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2022, **pp. 42-48**

MUSİQİ SƏNƏTİ

UOT 781,7

Malik Mansurov
Xalq artisti, dosent
Azərbaycan Milli Konservatoriyası
AZ 1073, Bakı ş., Ələsgər Ələkbərov 7
E-mail: turanmansurova@mail.ru

"BAYATI-ŞİRAZ" MUĞAMININ İNKİŞAF TARİXİ HAQQINDA

Açar sözlər: *muğam sənəti, "Bayatı-Şiraz", dəstgah, ifaçılıq, inkişaf tarixi, təhlil*

Muğamın tədrisi məsələləri bütün dövrlərdə diqqət mərkəzində olub, müxtəlif yanaşma tərzi ilə seçilmişdir. Qədim dövrlərdən muğam sənəti şifahi ənənələr əsasında ustaddan-şagirdə ötürülmüş, yaddaş vasitəsilə nəsildən-nəslə keçmişdir.

Muğam sənətinin mahiyyəti ifaçılıqla bağlıdır. Muğamın tədrisi prosesində onun tarixi inkişaf yolunu öyrənmək vacibdir. Məqalədə "Bayatı-Şiraz" muğamının tarixi inkişaf yolunu, nəzəri əsasları tədqiq edilmişdir.

Малик Мансуров

ОБ ИСТОРИИ РАЗВИТИЯ МУГАМА «БАЯТЫ-ШИРАЗ»

Ключевые слова: *искусство мугама, «Баяты-Шираз», дастгях, перформанс, история развития, анализ.*

Вопросы обучения мугаму всегда были в центре внимания, был выбран с другим подходом. С давних времен искусство мугама передавалось от мастера к ученику на основе устных традиций, передается из поколения в поколение через память.

Суть искусства мугама связана с исполнительством. В процессе обучения мугаму важно изучать его историческое развитие. В статье исследуются историческое развитие и теоретические основы мугама «Баяты-Шираз».

Malik Mansurov

ON THE HISTORY OF DEVELOPMENT OF “BAYATI-SHIRAZ” MUGAM

Keywords: *Mugam art, "Bayati-Shiraz", dastgah, performance, history of development, analysis*

The issue of teaching mugam has always been in the center of attention, was chosen with a different approach. From ancient times, the art of mugam was passed from master to student on the basis of oral traditions, passed down from generation to generation through memory.

The essence of the art of mugam is related to performance. In the process of teaching mugam, it is important to study its historical development. The article explores the historical development and theoretical foundations of "Bayati-Shiraz" mugam.

Azərbaycan şifahi ənənəli musiqisində “Bayatı-Şiraz” əsas muğam dəstgahlarından biridir. Muğamın tarixi inkişaf yolunu araşdırmaq üçün ilk növbədə, Orta əsr yazılı mənbələrinə müraciət edirik. Lakin qeyd etməliyik ki, “Bayatı-Şiraz” muğamının adına Orta əsrlərdə klassik muğamlar arasında rast gəlmirik. Səfiəddin Urməvinin (XIII əsr), Əbdülqadir Marağayinin (XIV əsr) elmi əsərlərində “Bayatı-Şiraz” muğamının adı göstərilmir. Hətta bu muğamın adı XVII-XIX əsrlərin musiqi risalələrində də çəkilmir. Lakin bu muğamın tarixi inkişaf yoluna nəzər saldıqda, Orta əsrlərdə 12 klassik muğamdan biri olan “İsfahan” muğamının “Bayatı-İsfahan”a çevrilməsi fikrini əsas götürmək olar. Belə ki, “Bayatı-İsfahan” muğamı keçmiş dövrlərin musiqi təcrübəsində geniş yayılmışdır, sonradan isə tədricən şöbə halına keçərək, hal-hazırda “Bayatı-Şiraz”ın mərkəzi şöbələrindən biridir.

Səfiəddin Urməvinin “Kitabül-Ədvar” risaləsində üzə çıxardığı 12 muğamdan birinin “İsfahan” olduğunu görürük. Həmçinin, 6 avazdan biri olan “Gərdaniyyə” “Bayatı-Şiraz”da işlənən guşələrdən biri olmuşdur. Əbdqlqadir Marağayinin “Came əl-Əlhan” əsərində isə 24 şöbənin adı çəkilmiş və quruluşu təqdim edilmişdir. Bu siyahıda da biz “Bayatı-Şiraz” muğamına daxil olan “Üzzal”, “İsfahanək”, “Nühüft” kimi muğam şöbələrinin adlarına rast gəlirik (5, s. 205-207).

XIX əsrin sonu – XX əsrin əvvəllərində də “Bayatı-Şiraz” muğamı “Bayatı-İsfahan” adlanırdı. Həmin dövrdə Mansurovların rəhbərliyi ilə fəaliyyət göstərmiş Bakı muğam məclislərində “Bayatı-İsfahan” muğamı oxunurdu. Bu muğam İran musiqisində bu gün də geniş yayılmışdır. XX əsrə qədərki dövrdə muğam ifaçılığında “Bayatı - İsfahan” dəstgahı mövcud olmuş və aşağıdakı

şöbələri əhatə etmişdir. Mansurovlara məxsus muğam cədvəllərində muğamın tərkibi aşağıdakı şöbə və guşələrdən ibarətdir: "Bərdaşt", "Gərduniyyə", "Nəşibü-fəraz", "İsfahanək", "Bayatı - İsfahan", "Xosrovan", "Nühif", "Hacı-Yuni", "Naleyi-zənbur", "Məsnəvi", "Pəhləvi", "Bayatı - kürd", "Qatar", "Bayatı-əcəm", "Gəbri", "Baba Tahir", "Azərbaycan", "Əbül-çəp", "Bayatı - Şiraz", "Xavəran", "Üzzal", "Dilrüba" və "Mayə Bayatı-Şiraza ayaq".

"Bayatı-Şiraz" muğamı ilə bağlı tarzən Bəhram Mansurovun fikirləri də çox diqqətəlayiqdir. O, "Ömür qıysa" kitabında bu məsələyə aydınlıq gətirərək yazır ki, "Bayatı-Şiraz" müstəqil muğam kimi yalnız XIX əsrin axırlarından mövcuddur. O göstərir ki, "Bayatı-Şiraz" bundan əvvəl "Bayatı-İsfahan" dəstgahı kimi 22 şöbə və guşədən ibarət olmuşdur. Sonradan "Bayatı-İsfahan" dəstgahından "Bayatı-kürd" şöbəsi ayrılır və müstəqil dəstgah şəklində ilk dəfə Cabbar Qaryağdıoğlu tərəfindən ifa olunur. "Bayatı-İsfahan" muğamının qalan hissələri isə "Bayatı-Şiraz" muğamının əsasını təşkil edir. Göründüyü kimi, yalnız XIX əsrin axırlarından "Bayatı - Şiraz" muğamı müstəqil muğama çevrilməyə başlamış, "Bayatı-İsfahan" isə onun tərkibinə əsas şöbə kimi daxil olmuşdur.

B.Mansurov öz mülahizələrində İran musiqisində də "Bayatı-İsfahan" muğamının olduğunu deyir və qeyd edir ki, İran musiqisində "Bayatı-Şiraz" - "Bayatı-İsfahan" dəstgahına daxildir, Azərbaycan musiqinsə isə tərsinə - "Bayatı-İsfahan" bir şöbə kimi "Bayatı-Şiraz"a daxil olur. Əsas fərqlərdən biri kimi B.Mansurov İranda "Bayatı-İsfahan" muğamının "lya" kökündən, Azərbaycanda isə "si" kökündən ifa olunduğunu göstərir. O, belə bir qənaətə gəlir ki, "Bayatı-Şiraz" XIX əsrin ikinci yarısından bu yana inkişaf eləyib, özü də Azərbaycanda! Beləliklə, "Bayatı-İsfahan" ayrıdır, "Bayatı-Şiraz" ayrı" (3, s.155-156). Göründüyü kimi, Bəhram Mansurovun fikirləri "Bayatı-Şiraz" muğamının tarixi inkişaf yolunun araşdırılması üçün qiymətli mənbədir.

XX əsrdə ilk dəfə Mirzə Fərəcin tərtib etdiyi muğam cədvəlində "Bayatı-Şiraz" kimi müstəqil muğamın adı öz əksini tapmışdır. Bu cədvəldə "Bayatı-Şiraz" 17 şöbə və guşədən ibarət dəstgah kimi göstərilmişdir: 1. Dəraməd; 2. Bayatı-İsfahan; 3. Bayatı-Şiraz; 4. Əbülçəp; 5. Cəfəriyyə; 6. Budəşti; 7. Azərbaycan; 8. Bayatı-Kürd; 9. Hacıyuni; 10. Giləyi; 11. Dəşti; 12. Məhdi-Zərrabi; 13. Qatar; 14. Bayatı; 15. Aşiqi-Güş; 16. Niiriz-Davudi; 17. Üzzal.

Göründüyü kimi, Mirzə Fərəc tərəfindən tərtib olunmuş bu cədvəldə ilk dəfə olaraq müasir "Bayatı-Şiraz"ın əsasını təşkil edən şöbələr - Bayatı-Şiraz, Bayatı-İsfahan, Əbülçəp, Üzzal - öz əksini tapmışdır. Lakin R.Zöhrabov "Muğam" əsərində bu cədvəlin dəstgah formasına uyğun olmadığı fikrinə gəlir. O yazır ki, bu tərkibdə "Şur", "Rast", "Nəva" və başqa muğamlara keçidlər özünü göstərir və sonda "Bayatı-Şiraza ayaq" – muğamın yekunu, mayəyə qayıdış verilmir. Dəstgah zil şöbə olan "Üzzal" ilə tamamlanır ki, bu da muğam dəstgah quruluşu üçün səciyyəvi deyil (4).

Bu məsələ ilə bağlı R.Zöhrabov qeyd edir ki, “Bayatı-Şiraz”ın ifa cəhətdən inkişafı nəticəsində həmin dəstgah bəzi şöbə və guşələrdən azad olmuşdur. Belə ki, bu şöbə və guşələr bayatı-şiraz məqamına uyğun gəlmədiyi üçün dəstgahın tərkib hissəsindən ixtisar edilmişdir, çünki, bu cədvəldə öz əksini tapmış bəzi şöbə və guşələr digər muğam tərkiblərinə aid olub, müasir dövrdə “Bayatı-Şiraz” muğamında istifadə olunmur, bəziləri isə artıq unudularaq, yaddaşlardan silinmişdir və onlar haqqında məlumat əldə etmək və onları bərpa etmək getdikcə çətinləşir.

Məsələn, “Cəfəriyyə”, “Budəşti”, “Niiriz-Davudi” belə şöbələrdəndir ki, Mirzə Fərəcdən sonra heç bir muğam cədvəlində onların adına rast gəlinmir. Yalnız Ə.Bədəlbəylinin “Musiqi lüğəti”ndə ayrı-ayrılıqda “Niiriz” (“Rast” və “Mahur” dəstgahlarında) və “Neyi-Davud” (“Naleyi-Zənburi” muğam adının bir variantı kimi, “Hümayun” dəstgahının tərkibində) muğam adları göstərilir ki, bunların da musiqi məzmununa görə tam olaraq “Niiriz-Davudi” terminin uyğun olduğu haqda dəqiq məlumat yoxdur.

“Əbül-çəp”, “Azərbaycan”, “Bayatı-kürd”, “Hacı-Yuni”, “Dəşti”, “Qatar” kimi şöbələr həm Mirzə Fərəcin cədvəlində, həm də Ü.Hacıbəylinin proqramında verilmişdir ki, bu da muğam tərkiblərinin oxşarlığını üzə çıxarır. Bakı Musiqi Texnikumunun Şərq şöbəsi üçün tərtib olunmuş proqramda (1925) “Bayatı-İsfahan” muğamı verilmişdir. Onun tərkibi aşağıdakı kimidir: “Mayeyi-Bayatı-Şiraz”, “Bayatı-İsfahan”, “Əbül-çəp”, “Azərbaycan”, “Bayatı-kürd”, “Hacı-Yuni”, “Dəşti”, “Qatar”, “Üzzal”, “Bayatı-Şiraz”.

Mirzə Fərəcin cədvəlində göstərilən digər şöbələri xarakterizə edərkən, onların başqa muğamlardakı yerini göstərə bilərik. Məsələn, “Azərbaycan” şöbəsi – “Kürdü-Şahnaz”, “Bayatı-kürd” muğamlarında çalınıb-oxunan son şöbədir; “Bayatı-Kürd” – “Şur” ailəsinə daxil olan kiçik həcmli muğamdır və eyni zamanda, muğam şöbəsi kimi “Şur”, “Bayatı-Şiraz”, “Dəşti” muğamlarının tərkibində də ifa olunur; “Hacı-yuni” – XIX əsr Azərbaycan musiqisində “Rəhavi” (“Rəhab”) və “Nəva” dəstgahında ifa olunan şöbədir; “Giləyi” (“Giləgi”) – “Dəşti” muğamında ifa olunan şöbədir; “Dəşti” – müstəqil ifa olunan kiçik həcmli muğam olmaqla yanaşı, “Nəva-Nişapur” dəstgahında ən böyük şöbədir; “Mehdi-Zərrabi” – vaxtilə “Şur” dəstgahında çalınıb-oxunan muğam şöbəsi kimi məlumdur, hal-hazırda istifadə olunmur; “Qatar” – “Rast” ailəsinə daxil olan kiçik həcmli muğam; “Bayatı” – “Qatar” muğamının ifa növlərindən biri kimi yayılmışdır. “Aşiqi-güş” – “Segah-Zabul” dəstgahında kiçik guşənin adıdır.

“Üzzal” şöbəsinə gəlincə, qeyd etməliyik ki, bu, “Bayatı-Şiraz” dəstgahında “Xavəran” şöbəsindən sonra çalınıb-oxunan zil tessituralı şöbədir. Onu da qeyd edək ki, “Üzzal” şöbəsi “Bayatı-Şiraz” muğamının bütün variantlarında dəstgahın sonuna yaxın ifa olunur və ondan sonra adətən, “Bayatı-Şiraz”ın kadensiyası verilir. Bu əlaməti həm Ü.Hacıbəylinin proq-

ramında, həm də Ə.Bakıxanovun proqramında görürük.

Əhməd Bakıxanovun proqramında "Bayatı-Şiraz" muğamı tar sinfi üçün aşağıdakı tərkibdə verilmişdir: "Bərdaşt", "Mayə", "Nəşibü-fəraz", "Bayatı-İsfahan", "Xavəran", "Üzzal", "Bayatı-Şiraza ayaq". Proqramın səs sinfi üçün olan bölməsində "Bayatı-Şiraz"ın tərkibində bəzi dəyişikliklər özünü göstərir: "Bərdaşt", "Mayə", "Nəşibü-fəraz", "Bayatı-İsfahan", "Zil Bayatı-Şiraz", "Xavəran", "Üzzal" ("Şikəsteyi-fars"), "Bayatı-Şiraza ayaq". Göründüyü kimi, xanəndələr üçün nəzərdə tutulmuş ikinci tərkibdə "Bayatı-İsfahan"dan sonra "Zil Bayatı-Şiraz" şöbəsi verilmişdir, "Üzzal" şöbəsinin isə "Şikəsteyi-fars"la əvəz olunması bir variant kimi qeyd olunmuşdur. Onu da deyək ki, müasir muğam ifaçılığında istər instrumental, istərsə də vokal-instrumental şəkildə ifası zamanı bütün bu şöbələrdən istifadə olunur.

Hər bir muğamın sonluğunda mayəyə qayıdışın zəruri olduğunu nəzərə alsaq, əlbəttə ki, "Üzzal" şöbəsinin segahda qurulmasını, sonra bayatı-şiraza keçid edərək tamamlanmasını bu şöbənin səciyyəvi cəhəti kimi göstərməliyik. Bununla əlaqədar Məmmədsaleh İsmayılovun fikirləri də diqqətəlayiqdir. O, "Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər" əsərində bayatı-şiraz məqamının istinad pərdələrində qurulan "Bayatı-Şiraz" muğamının şöbələrini xarakterizə edərək yazır: "Üzzal" şöbəsi, mayənin kvintası – VIII pərdə ətrafında gəzişməklə - ona istinad etməklə başlanır, sonra isə yarımton yüksəlmiş VI pərdədə qərar tutur ki, bununla da "Bayatı-Şiraz"dan böyük tersiya yuxarı olan segaha yönəlmə baş verir və yenə də bayatı-şiraza qayıdılmaqla tamamlanır" (2, s. 23).

M.İsmayılovun verdiyi tərifdən və "Üzzal" şöbəsinin musiqi məzmunundan göründüyü kimi, sonda bayatı-şirazın mayəsinə qayıdış bu şöbənin səciyyəvi cəhətidir. Mirzə Fərəcin cədvəlində də muğamın "Üzzal" şöbəsi ilə bitməsi ənənəvi hal kimi qəbul oluna bilər.

Beləliklə, Mirzə Fərəcin cədvəlindəki və ilk muğam proqramındakı muğam tərkiblərinin müqayisə olunması göstərir ki, "Bayatı-Şiraz" və "Bayatı-İsfahan" ən böyük və əhəmiyyətli şöbələrdir. "Bayatı-İsfahan" adının "Bayatı-Şiraz"la əvəz olunması isə muğam sənətinin inkişafı ilə bağlıdır. Bununla əlaqədar fikirlərə Üzeyir Hacıbəylinin məqalələrində də rast gəlirik. "İlk Azərbaycan xoru" məqaləsində o yazmışdır: "Bizim səkkiz əsas muğamımız vardır: "Rast", "Segah", "Şur", "Çahargah", "Bayatı-İsfahan" (yaxud "Bayatı-Şiraz"), "Şüştər", "Hümayun", "Zabil". Bunların hər biri öz məqamının xüsusiyyətləri ilə fərqlənir" (6).

"Azərbaycan türk xalq musiqisi haqqında" məqaləsində Ü.Hacıbəyli yazır: "Zaman keçdikcə istər baş məqamlar, istərsə də onların şöbə, guşə və avazları böyük dəyişikliklərə uğramışdır; bəzi məqamlar öz müstəqil əhəmiyyətini itirərək şöbəyə və ya guşəyə çevrilmişdir, bəzi şöbə və guşələr isə müstəqil məqama çevrilmişdir; sonra Bayatı-Şiraz, Şur kimi yeni adlar

meydana gəlmişdir” (6, s. 257). Beləliklə, Ü.Hacıbəyli “Bayatı-İsfahan” muğamının “Bayatı-Şiraz” muğamına çevrilməsini təsdiq edir. “Azərbaycan xalq musiqisinin əsasları” əsərində Ü.Hacıbəyli bayatı-şiraz məqamının nəzəri əsaslarını üzə çıxarmış və bu məqamda bəstələnən musiqinin quruluşunun aşağıdakı şöbələrdən ibarət olduğunu göstərmişdir: “Mayeyi-Bayatı-Şiraz”, “Bayatı-İsfahan”, “Üzzal”, zildə “Bayatı-Şiraz”, “Bayatı-İsfahan” və mayəyə qayıdış.

Beləliklə, Ü.Hacıbəyli “Bayatı-İsfahan” muğamının “Bayatı-Şiraz” muğamına çevrilməsini təsdiq edir. Bütün hallarda “Bayatı-Şiraz” və “Bayatı-İsfahan” muğam adlarının yanaşı qoyulduğunu və bir-biri ilə əlaqədar olduğunu görürük.

Eyni zamanda, Əfrasiyab Bədəlbəylinin “Musiqi lüğəti”ndə hər iki muğam adının izahlarına rast gəlirik. Ə.Bədəlbəyli “Bayatı-İsfahan”ı: 1. Klassik musiqidə “İsfahan” adlanaraq, 12 əsas muğamdan biri; 2. “Bayatı-Şiraz” dəstgahının əsas şöbələrindən biri kimi şərh edir. “Bayatı-Şiraz”la bağlı isə o, belə izahat verir: 1. Azərbaycan musiqisinin yeddi əsas muğamından biri; 2. “Bərdaşt”, “Mayə”, “Nəşibü-fəraz”, “Bayatı-İsfahan”, “Xavəran”, “Üzzal” kimi mühüm muğam şöbələrinin məcmusundan ibarət olan bir dəstgahdır (1, s. 29). Göründüyü kimi, Ə.Bədəlbəylidə artıq “Bayatı-Şiraz” əsas muğam kimi, kökü qədim “İsfahan” muğamı ilə bağlı olan “Bayatı-İsfahan” isə onun mərkəzi şöbəsi kimi xarakterizə olunmuşdur. Hal-hazırda muğam proqramlarında və ifaçılıq təcrübəsində “Bayatı-Şiraz” muğam dəstgahının məcmusunu 8 şöbə və guşə təşkil edir. Bunlar: “Bərdaşt”, “Mayeyi-Bayatı-Şiraz”, “Nəşibü-fəraz”, “Bayatı-İsfahan”, “Zil Bayatı-Şiraz”, “Xavəran”, “Üzzal”, “Dilrüba”, “Bayatı-Şiraza ayaq” (kadensiya) şöbə və guşələridir. Bu muğam-dəstgah “sol” bayatı-şiraz məqam-tonallığında ifa olunur. Onu da deməliyik ki, son dövrdə “Bayatı-Şiraz” muğamının yekunlaşdırıcı hissəsində “Üzzal”dan sonra “Şikəsteyi-fars”, “Dilrüba” kimi şöbələrdən geniş istifadə olunur ki, bu da segah mühitinin dərinləşdirilməsi ilə bağlıdır.

Bütün yuxarıdakı təhlillərdən göründüyü kimi, “Bayatı-Şiraz”ın ifa cəhətdən inkişafı nəticəsində həmin dəstgah bəzi şöbə və guşələrdən azad olmuşdur. Belə ki, həmin şöbə və guşələr bayatı-şiraz məqamına uyğun gəlmədiyi üçün dəstgahın tərkib hissəsindən ixtisar edilmişdir, eyni zamanda, emosional-təsir qüvvəsinin artırılması məqsədilə bir sıra şöbələr əlavə olunmuşdur ki, bunun da nəticəsində muğam daha lakonik xarakter almışdır.

“Bayatı-Şiraz” muğamının bir neçə not yazısı çap olunmuşdur:

1. Nəriman Məmmədov tərəfindən Əhməd Bakıxanovun ifaçılıq ənənəsindən yazılmış “Bayatı-Şiraz” instrumental muğamı 1962-ci ildə Bakıda çap olunmuşdur. Tərkibi: Bərdaşt, Mayə, Nəşibü-fəraz, Bayatı-İsfahan, Bayatı-Şiraz, Üzzal, Şikəsteyi-fars, sonda Bayatı-Şiraza ayaq verilir.

2. Arif Əsədullayevin öz ifasından nota yazdığı “Bayatı-Şiraz” instru-

mental muğamı Bakıda 2002-ci ildə çap olunmuşdur. Tərkibi belədir: Bərdaşt, İsfahanək; Mayə (Bayatı-Şiraz), Əbül-çəp, Gərdaniyyə - avaz; Nəşibü-Fəraz, Nişibi-fəraza ayaq (kadensiya); Bayatı-İsfahan, Xümsü-rəvan (xosrovani), Gəzişmə (avazi-naqis, qalıq), Zil Bayatı-Şiraz, Zil Əbül-çəp; Xavəran; Üzzal, Şikəsteyi-fars, Nühüft, Gəzişmə (avazi-naqis, qalıq); Dilrüba; Bayatı-Şiraza ayaq (koda).

3. Fuad Əzimlinin notlaşdırdığı "Bayatı-Şiraz" muğamı "Azərbaycan muğam məktəbi" kitabında, Bakıda, 2008-ci ildə çap olunub. Tərkibi: Bərdaşt, İsfahanək, Mayə Bayatı-Şiraz, Əbülçəp, Nişibi-fəraz, Bayatı-İsfahan, Zil Bayatı-Şiraz, Xavəran, Hüzzal, Dilrüba, Bayatı-Şiraza ayaq.

4. Əkrəm Məmmədlinin Kamil Əhmədovun ənənəsinə uyğun notlaşdırdığı "Bayatı-Şiraz" muğamı "Azərbaycan muğamları" (instrumental) kitabında, Bakıda, 2010-cu ildə çap olunmuşdur. Tərkibi: Bərdaşt, Möləvi, Mayeyi Bayatı-Şiraz, Nəşibü-fəraz, Bayatı-İsfahan, Zil Bayatı-Şiraz, Xavəran, Üzzal, Dilrüba, Bayatı-Şiraza ayaq şöbələrindən ibarətdir.

"Bayatı-Şiraz" muğamının mahir ifaçılarından Hacı Məmmədov, Əhsən Dadaşov, Bəhram Mansurov, Firudin Yarməmmədov, Habil Əliyev, Əliağa Quliyev, Sərvər İbrahimov, Həbib Bayramov, Ədalət Vəzirov, Elman Bədəlov, Firuz Əliyev, Ağasəlim Abdullayev, Möhlət Müslümov və başqalarının adlarını qeyd edə bilərik.

ƏDƏBİYYAT

1. Bədəlbəyli Ə.B. İzahlı-monoqrafik musiqi lüğəti. B.: 1969, 245 s.
2. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin muğam və məqam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. B.: 1991, 120 s.
3. Mansurov B.S. Ömür qıysa. B.: 2003, s. 161
4. R.Zöhrabov. Muğam. B., 1991, 119 s.
5. Səfərova Z.Y. Azərbaycanın musiqi elmi (XIII-XX əsrlər). B.: 1998, 584 s.
6. Ü.Hacıbəyov. Əsərləri. II cild. B., 1965, 270 s.

Məqalənin redaksiyaya daxil olma tarixi: 17.01.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.01.2022
Məqalənin çapa qəbul olunma tarixi: 15.02.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Ellada Hüseynova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.